*90 illiyi qarşısında*

# ŞAİR SƏRDAR ƏSƏD

## “ARALANIB GÖZÜMDƏN FİKRİMDƏ YAŞAYIRSAN”



*Qəzənfər KAZIMOV,*
*SSməkdar elm xadimi,*
*professor*

*(Əvvəli ötən sayımızda)*

Poemanın qəhrəmanı Eldar təsərrüfat, su, əkin-biçin işlərinin coşqun təşkilatçısı, icraçısıdır. Lakin onun dostu Nadir zəhmətlə dolanmaq, zəhmətlə yaşamaq istəmir, tüfeyli həyat keçirməklə məşğuldur. Odur ki Eldarın sevgilisi həkim Gülzara göz tikir, onunla evlənmək, zəhmət çəkmədən rahat yaşamaq arzusunndadır. Odur ki Eldarın toy edib evləndiyi günlərdə bədbin həyat keçirir, Eldara qarşı kin bəsləyir, onun işlərinin pozulmasını arzulayır.

Bu poema da gənc şairin Sovet dövrü quruculuq işlərinə, yeniliyə meylini, münasibətini əks etdirir, ilk təcrübə olsa da, həcm etibarilə xeyli böyük olub şairin bir sənətkar kimi yetişmiş olduğunu, artıq söz demək qüdrətinə malik olduğunu göstərir.

"Bakının şeriyyəti" lirik poeması da şairin ilk poemalarındandır. Poema Bakının zəhmət adamlarına, əhalinin sovet dövründə qurmaq, tikmək, yaradıcılıq ruhunun genişliyinə, dəniz qoynunda yerləşən şəhərin gözəlliyinə, zəhmət adamlarının tərənnümünə, şəhərin işıqlı təbiətinə həsr olunmuşdur:

Hələ ulduz sönməmiş,
Hələ saat altıdır.
Hərdən Bakı gecəsi
Bakılını aldadır;
Həyat işıq, çöl işıq, –
Sanırsan ki, səhərdir.
Şəhər gör nə şəhərdir!

1957-ci ilin martında "Azərbaycan" jurnalına təqdim etdiyi "Kürün suları" ("Kür", "Kürün söhbəti" kimi başlıqlar ilə də işlənmişdir) poeması da sovet dövrünün əzəmətli quruculuq işlərindən bəhs edir. Min illərlə susuzluqdan dili cadar-cadar olmuş Muğan torpaqları Kürdən çəkilən kanalların gətirdiyi su ilə cana gəlmişdir və min nemət yetirir. Kür suları bütün ətraf aləmə işıq saçır. Muğan çöllərini gəzən gənc oğlan rast gəldiyi bu yerlərin qoruqçusi ilə tanış olur, onun dili ilə Kür çayının qüdrəti, Muğan çöllərinin əzəməti, bu yerlərdə sazın, sözün genişliyi barədə məlumat alır. Mingəçevir işıqları bu yerlərdə bütün aləmə dirilik gətirmişdir:

Tərpədib işlədir dəmir çarxları,
Muğanda ot çalır, yük çəkir işıq.
Qırxır sürüləri, qazır arxları,
Dağları düzləyir, yer əkir işıq.
Yeni şəhər salan, yeni kənd salan,
İşıqlı evlərə aynabənd salan,
Muğandan axışıb Kürə bənd salan,
Dönməz adamlara baş çəkir işıq!

Şairin qələmi də getdikcə cilalanır, aforistik misralarla zənginləşir:

Qartal asimanı, qəhrəman yeri,
Aşıq da sazını tərk edə bilməz.

Şairin öz şerini sevdirə bilməsi üçün zəhmətə daha çox qatlaşmaq lazım olduğun etiraf edir:

Ey Muğanda məhsul yığan, yer əkən,
Bu şeirimi dönə-dönə varaqla!
Sevə-sevə oxumaqçün onu sən,
Mən Muğanı oxuyuram maraqla!

Lakin bir şair kimi, özünün də, şerinin də hələ çox gənc olduğunu da unutmur:

Mənim şeirim hələ xeyli körpədir, –
Hər böyüyün körpə çağı olubdur!..

Şübhəsiz, bu cür əsərlərdə S.Vurğunun "Muğan" poeması ilə başlanan ədəbi ənənənin böyük təsir gücü vardır.

Sərdar "Yuxusuz gecələr" poemasını da tələbəlik illərində qələmə almışdır. Poema o dövrdə kənd təsərrüfatı texnikasının yerləşdiyi maşın-traktor stansiyası ilə kolxoz kəndinin əlaqəsindən bəhs edir. Sərdarın poetik yaradıcılıq imkanları poemada daha geniş meydana çıxır. Lakin yenə də obrazların xarakterində xəbislik, xudpəsəndlik ön plandadır, ailə-məişət məsələləri əsas quruculuq işlərinin ikinci plana keçməsinə səbəb olur. Öz bacısı oğlu Aslan dostluq münasibətində olan Maşın-Traktor Stansiyası direktoru Həsənlə kolxozun sədri Qurbanın arvadı Qəmər barədə şayiələr yaymaqla münasibətləri pozur, sədr uzun müddət stresdən çıxa bilmir. Nəhayət, yaxşı adamların köməyi ilə xəbis, vəzifə tutmaq naminə öz dayısını ləkələməyə çalışan Aslan ifşa olunur, Qurban həqiqəti başa düşür, arvadı və dostları ilə barışır.

Sovet kəndinin, sosialist təsərrüfatının yeni quruculuq üstünlükləri Sərdarı daim maraqlandırmışdır. Onun "Yer ulduzu" poeması da 50-60-cı illərdə insan əməyinin yüngülləşməsində böyük rolu olan yeni texnikanın roluna həsr olunmuşdur. Adi kəndli oğlu olan Köçəri Babayev kimi zəhmətkeş insanların əməyi, təşkilatçılığı sayəsində boz çöllər əkin-biçin üçün yararlı vəziyyətə gətirilir, məhsuldarlıq artır, əhalinin küll halında vəziyyəti yaxşılaşırdı. İnsanları fərəhləndirmək üçün dövlət onları qabağa çəkir, indiki müzürr və alçaq tayfaçılıq tendensiyasından fərqli olaraq, insanlara eyni gözlə baxır, əməyinə görə yüksək məclislərdə onların iştirakını təmin edir, onlara yüksək fəxri adlar verirdi. Poemada Cəbrayıl rayonundakı 26 Bakı komissarı adına kolxozun sədri, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR Ali Sovetinin deputatı Köçəri Babayevin və onun idarə etdiyi kolxozun zəhmət adamlarının əməyindən danışılır.

1970-1971-ci illərdə qələmə aldığı bu poema həmin dövrdə respublika radiosunun "Poeziya axşamları" verilişində səsləndirildiyi üçün "I səs", "II səs" kimi parçalara uyğunlaşdırılmışdır. Hadisələr əksərən təsvir və xatırlama şəklində poetikləşdirilmişdir:

Araz sahilində doğulmuşam mən,
Arazla bağlıyam körpə yaşımdan.
Ağaran dalğaya dağılmışam mən,
Araz köpüklənib aşıb başımdan.
İndi də işimiz ellərdən keçir,
Ondadır ağıl da, qol də, qələm də...
Yenə də yolumuz çöllərdən keçir –
Yenə köçərliyik – Araz da, mən də...

Köçərinin rəhbərlik etdiyi kolxoz Araz çayının sahilindədir. Buradan Araz çayına paralel dəmir yol xətti keçir. Bir vaxtlar elin bütün başıpapaqlıları bu dəmir yolu üzərindən keçən qatarlarla vətəni müdafiə üçün yola düşmüşlər. Köçəri də bu adamlardan biri kimi getmiş, ayaq barmaqlarını da cəbhədə itirmişdir. İndi bu şikəst ayaqlar torpağa nəfəs verir, onu cana gətirir:

Kin gülləsi üzsə də
Ayaq barmaqlarımı,
Amma kəsə bilmədi
Yolu sinəmdən keçən
Dayaq torpaqlarımı,
İşlək ayaqlarımı!

Bir vaxtlar yalnız ilğın və yovşan bitirən, susuzluqdan cadar-cadar olmuş boz çöllər Arazdan çəkilən su arxları vasitəsilə, kənd zəhmətkeşlərinin əməyi sayəsində məhsuldar çöllərə çevrilir. Getdikcə vəziyyət dəyişir. İndi artıq nəhəng buldozerlər vasitəsilə çöllər hamarlanır, əkin üçün yararlı yerlər çoxalır:

Tərpətdi gövdəsini
Dəmir dişli nəhənglər.
Sarmaşdı buldozerə
Uzun tros-tənəklər.
Təpələri əridib,
Keçirdik lehmələrdən.

İnsanların yükü də yüngülləşmişdir. Maşınlar, lafetlər min illərlə boş qalan yararsız sahələri təmizləməkdə əhaliyə böyük köməkdir:

İndi boşalıb dolan
Lafetlərdi, maşındı.
Beş-altı ay az qala
Kötüklə daş daşındı.
Lehmələri qurutduq,
Dərələri düzlədik.
Yeri qiymətli tutduq,
Torpağı əzizlədik.

Bunlar sovet dövrünün, kolxoz quruculuğunun nailiyyətləridir. Sərdar keçmişi təsəvvür edir, göz açıb bunları görürdü. Çox maraqlıdır ki, oxuduqları, təsəvvür etdikləri keçmiş ilə yeni gördükləri bir dövrə düşürdü - köhnələr uşaqlıq, yenilər gənclik illərinə.

Dövrün bütün əməksevər, işgüzar əmək adamları kimi, Köçəri də ağır məsuliyyət hiss edir. Əmək adamları ona etibar ediblər, sədr seçiblər, həm də kənd ağsaqqalıdır və ən ləyaqətli cəhəti də budur ki, o bunları heç vaxt unutmur:

Mən həm kolxoz sədriyəm,
Həm də kənd ağsaqqalı!
“Mənə baxır camaat” –
Fikri çıxmır başımdan;
Ağsaqqallıq etmişəm
Hələ cavan yaşımdan.

Yeni məktəb binası tikdirir, onun köməyi ilə köhnə evlər yeniləri ilə əvəz olunur. İlk dəfə meyvə bağları, üzüm plantasiyaları yaradılır. Köçərinin böyük təşkilatçılığı ilə əhali küllən işə cəlb olunur, tüfeyllilər, gizlənməyə çalışanlar, zəhmətdən qaçanlar da işə qoşulur:

Nəzərdən yayınıb yan keçənləri
Səslədi çöllərin iş ahənginə.
Kölgədə saralan “çayiçənləri”
Gətirdi çöllərin günəş renginə...
Arzusu və qayğısı da gözəldir:
Atalı-analı böyüsün hamı!
Heç insan qayğıdan yetim olmasın!

Sədr tikdirdiyi yeni məktəbin müəllimi Süleymanın tədris işinə münasibətindən fərəhlənir, sürücüsü Cəmilin vaxt-bivaxt işə hazır olmağından məmnun və razı qalır. Kolxozun malqarasına, ilxısına baxan Bayram isə onun nəzərində igidlik timsalıdır:

Buz sındırıb üz yuyur.
Sanki əliylə qoyur –
Heyvan itsə – tapandı.
İş görməsə darıxar...
Kəli boynundan yıxar,
Dediyinə düz çıxar –
Nə sirri var, nə andı...

Şair özü də poetik tədqiqat prosesində torpağı öyrənmiş, torpağa bağlılıq, torpağa qulluq, torpağa qayğı hallarını sədrin təsərrüfat baxışlarının təsviri prosesində obrazlı mənalandırmışdır:

Əl yerə bağlıdırsa,
Torpaq – zərdi, incidi.
Qışda çevir torpağı,
Qış – torpağın dincidir.
Gərək ayıq olasan,
Hər işin var öz çağı.
Qaydasına salasan
Biçənəyi, otlağı.
Gözəl təsvirdir:
Yonca nazlı bitkidir.
Hər biçəndə tez suvar,
Suvarmasan – itkidir.
Yerin yaşıl yelinə
Gərək çətir çəkəsən.
Gərək taxıl yerinə
Qarğıdalı əkəsən.
Becər, qalxsın yaşıl kök,
Qışa – tər-nübar kimi.
Quyulara doğra tök
Körpəcə xiyar kimi.
Qarda yedirt heyvana,
Gəlimə bax, südə bax...
Sübh tezdən çıx günə –
O gün sənin olacaq...

Sovet dövründə ənənəvi olaraq məhsul bayramlarında dost xalqların əməkçiləri Moskva şəhərində xoş görüşlər keçirirdilər. Hər bir məhsul bayramı elə sevinc gətirirdi:

Nəğmə sifarişi olmaz uğursuz! -
Payız sevindirir subay qızları...
Köçəri dinləyir döşündə Ulduz,
Yanında nurlanır Yer ulduzları!

Dahi rus şairi A.S.Puşkin kimi, S.Əsəd də erkən gənclik illərində uşaqlar üçün maraqlı nağıl-poemalar yaratmaqla məşğul olmuşdur. "Qardaşlar" poeması belə əsərlərdəndir (1956). İki yetim qardaş çətinliklə dolanır. Onların əllərində olan yeganə inəyi də kəndin kattası tutub alır. Əllərində olan yeganə balaca buzovu böyüdüb dolanmaq istəyirlər, lakin onu da canavar yeyir. Bütün bu çətinliklərin sonu xoş təəssüratla qurtarır, uşaqlara xoşbəxtlik üz verir: onlar kattanın zülm etdiyi, soyub-taladığı kənd adamlarından yığdığı xəzinəni tapıb yoxsullara paylayırlar. Uşaqları yenə də şərləməyə çalışan kattanı pristav özü quyuya salıb güllələyir.

Şairin romantik poema kimi qələmə aldığı "Sehrli yollar" poeması həyatla ölümün mübarizəsinə həsr olunmuşdur. Əsrdə ölümün əldə qılınc qaranlığa aparan mənhus yolları xatırlanır, həyatın, diriliyin işıqlı yolu təsvir olunur. "Doğma təbiətdən, şirin həyatın özü də hələ doymamış!" - deyən şair varlığın yaşamaq eşqini alqışlayır.

Ölüm öz mənhus sənəti ilə daim öyünməkdədir:

Mənimdir gördüyün o baş daşları,
Heç vaxt basılmayan bir aləmim var.
Mənim bir incimdir o göz yaşları,
Varlığa yox yazan bir qələmim var.

*(Davamı 9-cu səhifədə)*

# ŞAİR SƏRDAR ƏSƏD

## “ARALANIB GÖZÜMDƏN FİKRİMDƏ YAŞAYIRSAN”

*(Əvvəli 8-ci səhifədə)*

Həyat daim var gücü ilə mübarizədədir:

Tutma ətəyimdən, vurma dizimdən,
Dalınca bir qara daş atacağam.
Götür “hədiyyəni”, çəkil gözümdən,
Mən insan oğlunu yaşadacağam!..

Axırdı hər səmtə həyatın səsi:
“Yenə yaşayıram, yenə mən sağam”.
Gəzirdi hər yanı isti nəfəsi:
“Bu dünya durduqca doğulacağam!..”

Şairin iki həftəyə (31 yanvar - 16 fevral 1957) yazmış olduğu bu poema M.Qorkinin "Qız və ölüm" poemasını xatırladır.

1957-ci ilin martında yazdığı maraqla bir poemada Ziba adlı bir qızın taleyindən və Kor şairin qüdrətindən danışılır. Əlyazmada titul vərəqi itmiş bu poemanı şərti olaraq "Ziba" (və ya "Kor şair") adlandırmaq olar.

Mən poema qəhrəmanı olan o Kor şairin prototipini Sərdarın dəfn və təziyə mərasimlərində görmüşdüm. Həqiqətən gözləri görmürdü və həqiqətən yüksək istedad sahibi idi. Klassik ədəbiyyatı gözəl bilir, təəccüblü yaddaşı ilə uzun şeirləri əzbər söyləyir və mənasını ustalıqla şərh edirdi. Sərdarla yaxın imişlər.

Zibanı bir oğlana nişanlamışlar. Lakin o, oğlanı sevmir. Hiss olunur ki, oğ-

Ziba 15 il əvvəl arvadı ölmüş Kor şairin evinə yol tapır, rayondan gəldiyini, evsiz-eşiksiz olduğunu bildirib ona xidmətçi kimi qulluq emək istədiyini bildirir, Sitarə adı ilə son məqamda şairə ərə gedir. Bələləri özlərinə asanlıqla yol tapa bilirlər.

Sərdarın 13 avqust 1957-ci ildə bitirdiyi "Mavi gözlər" lirik poeması keçən əsrin 50-ci illərində Azərbaycanda rus dilinin tədrisini yaxşılaşdırmaq məqsədilə Rusiyadan Azərbaycana göndərilmiş gənc rus dili müəllimlərinin təsvirinə həsr olunmuşdur. Bu cür müəllimlərin bizim kəndə də gəldiyi, hörmətlə qarşılandığı, çoxunun ailə qurub oğul-uşaq sahibi olduğu gözlərimizin önündədir. Poemanın qəhrəmanı mavi gözlü Tanya belə müəllimələrin tipik nümunəsidir. Evinə düşdüyü Gövhər xala onu əzizləyir, qoruyur. Tanya da öz növbəsində rus adətləri ilə yanaşı, Azərbaycan dilini, Azərbaycan təbiətini, Azərbaycan kəndini sevir, öyrənir. Poema sovet dövrü beynəlmiləlçilik ruhunun təcəssümü təsiri bağışlayır. Tanya Volqanı, Donu yada saldığı kimi, Arazla, Kürlə də tanış olur, Puşkini, Nekrasovu xatırladıqca Nizamini, S.Vurğunu da oyrənməli olur:

Dolan xəyalında Kuban çölünü,
Amma unutma ki, Mil, Muğan da var.
Puşkin səninlə əzizləyək gəl,
Böyük Nekrasovun bilək qədrini.

30-cu illərə - kollektivləşməyə qədərki dövrdə ayrı-ayrı, tək-tək adamlara xidmət edən, ayrı-ayrı fərdlərin varlı yaşayışını təmin edən maldarlıq, qoyunçuluq artıq kollektiv təsərrüfatda hər bir zəhmət adamının çəkdiyi zəhmətə görə əmlakıdır, varıdır. Kollektiv təsərrüfat, kolxoz təsərrüfatı artıq 50-ci illərdə öz yüksək bəhrəsini verməkdə idi. Hətta müharibənin son günlərində, çətin vəziyyətdə olan kolxoz əmək gününə yağ, pendir, ət bölürdü. Boçka-boçka yağ, diri qoyun. Şair bəlkə də 30-cu illərin fərdi təsərrüfatını nəzərə alaraq, 50-ci illərdə qoyunçuluq təsərrüfatının, kollektiv təsərrüfatın yüksəlişini, təntənəsini tərənnüm edən belə bir poema yazmışdır. Budur, yaylaqda əhaliyə ferma məhsullarını çatdırmaq üçün maşınlara necə yük vurulduğunu şair belə təsvir edir:



Oda döndü çobanların əli-ayağı,
Motalları düzüm-düzüm yığıb yüklədi.
Şofer gördü çökür maşın, düşdü aşağı,
O, başını bulayaraq: -Bu nədir? - dedi, -
Qardaş, bu yük üç maşının yüküdür, düzü,
Təkər batır, görmürsənmi dözmür yer, - dedi.
Düşdü yada kolxozçular, o pambıq düzü...
-Eybi yoxdur, aparacaq “qara nər”, - dedi.
Gedənlərə məktub verdi ferma müdiri,
Dilcavabı tapşırdı da onlara bərk-bərk:
- Deyin, təzə tutduğumuz yağı, pendiri,
Aparmağa altı maşın yollansın gərək.

Müəllif mühüm bir məsələyə - kolxoz əmlakına əyri gözlə baxanlara kollektiv qınağın, münasibətin də konkret nümunəsini vermişdir. Sərdarın bu poemanı yazdığı elə həmin il - 1958-ci ildə özüm şahidəm ki, Stalinin vəfatından beşcə il sonra bizim kolxozun yaylağa aparılan 10 min qoyunundan cəmi 6 min qoyun qaytarılmışdı - itdi, canavar yedi, sel apardı adları ilə. Sərdar bunu bilməmiş olmazdı.

Sərdarın həcmli və maraqlı poemalarından biri də "Şimşək" poemasıdır. Üçcildliyin tərtibçisi, şairin hörmətli oğlu Yaşar Əsədov yazır: “Dağlar qoynunda” poeması bu poemada tam həcmdə istifadə edilmişdir. Ancaq mənə elə gəlir ki, əvvəl (hər halda ilkin işlənmiş variantda) “Şimşək” yazılıb və “Dağlar qoynunda” ondan parça kimi işlənib. Hər halda, ümumiyyətlə, 1950-ci illərdə S.Əsədin digər poemalarla da iş üslubu belə olub: əvvəl düşündüyü ideyanı mümkün qədər böyük həcmdə yazıb, ardınca həmin əsərdən ayrı-ayrı parçalar işləyib. Bu qənaət heç də əsassız deyildir. Məsələn, əvvəl “Səbuhi” yazılıb, ardınca - yığcamlaşdırılmış versiyası olan “Ağ saçlı Qafqaz”; “Yuxusuz gecələr” yazılıb - ardınca “Qonaq getmişdir evdən”; “Kəndimizdə” - “Topçağa su gəlir”, “İki hökm” - “Cərrah ürəyi” və s.

Odur ki, “Şimşək” əsərinin də hər halda erkən versiyasının “Dağlar qoynunda” poemasından əvvəl, yəni 1958-ci ilə qədər yazıldığını ehtimal edə bilərik".

Bu üslubu əksinə də düşünmək mümkündür. Əslində, qayda belədir ki, bir əsər yazılır, sonra müəllif baxır ki, beynində mövzu ilə bağlı çoxlu yeni hadisələr, faktlar var, əsərə yeni qollar artırmaq, hadisələri məzmunu zənginləşdirməklə genişləndirmək mümkündür. Məsələn, böyük yazıçımız S.Rəhimov povest kimi çap etdirdiyi "Şamo"nu sonralar dəfələrlə işləyərək epopeyaya çevirmişdir. Lakin belə də ola bilər ki, sovet dövründə çap işi çətin olduğu kimi, hər söz demək də caiz deyildi və mətbuat qəbul etmirdi, bu cür çətinliklərlə əlaqədər mütərəqqi sayılan bir cəhəti dərinləşdirib artıq şeyləri ixtisar etmək lazım gələrdi. Bunu eyni məzmunlu əsərlərin çap vaxtını nəzərə almaqla bir qədər dəqiqləşdirmək də olar.

"Şimşək" bütün digər poemalardan həcm və məzmununa görə genişdir, fərqlidir. Poemada insanın xisləti, insan təbiətində olan ən yaramaz cəhətlərdən biri - murdar paxıllıq hissi tənqid edilmişdir. Əslində, bu hiss bütün canlılara məxsusdur, lakin onun azlığı və ya çoxluğu var. Məsələn, böyük ağaclar kölgə salaraq öz dairəsində olan kiçik ağacların inkişafına imkan vermir. Heyvanlardan canavar qoyun sürüsünə girdikdə birini parçalayıb yemək əvəzinə, paxıllıq və əclaflıqla neçəsini boğub öldürür. Tülkü toyuq hininə girdikdə biri ilə kifayətlənmir, hamısını boğub öldürməyə çalışır. İnsan əli altında işləyən insanın inkişafını görmək istəmir.Bir kitabı olan adam adamının köməyi ilə akademik olur, imkanı olan kimi min kitabı olan adamların məhvinə çalışır. Heyvan heyvandır, ancaq bu cəhət insanda insani deyil, elə yenə heyvani alamətdir. Lakin hər millətdə eyni dərəcədə deyil. Bizdə daha güclüdür. Odur ki Sərdar aktual mövzuya toxunmuşdur.

Hadisələr bir kəndin qoyunçuluq fermasında xalq əmlakına insanların münasibəti ilə bağlı hadisələrin təsviri şəklində cərəyan edir. Sürülər yaylaqdadır. Aran yerlərində yay aylarında dəhşətli istilər olduğu üçün min illərlə babalarımız sürüləri yuxarı - dağ yerlərinə qaldırmış, sərinlik düşəndə qaytarmışlar. İndi babalarımızın həmin o yaylaq yerləri də mənfur rəhbər işçilərin məsuliyyətsizlik və düşmənçiliyi ucbatından erməni məskəninə çevrilmişdir.

Sərdar bizdən xoşbəxtdir ki, bunları görmədən həmin o yaylaqlara sevgisini söyləmişdir:

Eşqinə düşdüyüm uca dağların
Başında qar durur, ayağında buz.
A Yaylaq, nə çoxdur dövlətin, varın,
Günlərin gəlməmiş sənin uğursuz.

Kölgəndə islanım, quruyum gündə,
Güldən, torpağından alım ətrini.
O ki var sıx məni dar keçidində,
Geniş döşlərinin bilim qədrini.

Əsər yaylağın tərifindən sonra çoban Qəzənfərin xəyanətinin təsviri ilə başlanır. "Kef elə, ağa tək yeri, Bir inlicinli bilməz əsla bu sirri", "Nə gedir bağdan gedir, bağbana nə var"- deyə özünün ifadəsi ilə desək, az qala, "dəvə boyda" beş erkəyi yeddi arıq toğluya dəyişib, iki toğlu və üstəlik xeyli pul qazanır. Lakin xalq əmlakının hər cür talandığı indiki dövr kimi deyil. Xalq əmlakının, dövlət malının namuslu qoruqçuları, qoruyucuları var. Baş çoban Əlimərdan var, almanlarla mübarizədə böyük döyüş yolu keçmiş çoban Alı var.

lan kasıbdır, fağırdır, bu qızın özü qədər sırtalmıyıb. Qız dolayı yollarla yaşamaq, harın yaşamaq istəyi ilə yaşayır:

Elə oğlanların canına qadam,
Prosto, adamın tökülür əti.
Onunla heç yerə ayaq basmaram,
Onun ki yox imiş mədəniyyəti!

Sərdar tələbə olduğu illərdə şəhərdə belə qadınlara çox rast gələ bilərdi. Ziba bir şoferlə tanış olur. Kəbinsiz, kağızsız bütün sərhədləri keçməyə imkan yaradır:

Yumşaq kabinada kəsilir səslər,
Bir sinə üstündə bir sinə gəzir.
Sual-cavab etmir coşmuş həvəslər,
Sərxoşlar ovandı tərsinə gəzir.

Əvvəlki oğlanı fikrindən birdəfəlik atmalı olur, döşəyi ətrafına səpələnən yüzlüklər, aynabənd otaqlar, AU maşını ixtiyarını tam şəkildə şoferə verməsinə səbəb olur. Kefinin belə kök məqamında şoferlə birlikdə Kor şarin məclisinə düşür, hətta ondan yadigar kitab da alır. Anadan kor doğulan bu şair 15 illik həbs həyatı da keçirmişdir:

Tanış qapıları yad əl döyəndə,
Başlının başını başsız əyəndə,
Sənət düşmənləri “ağla” deyəndə, -
Düyüb yumruğunu hey gülmüşdür o!

Başlının başını başsız əyəndə - tipli misralar, bəzən şairin öz ürək sözlərini deyə bilməməsi, deyilməli sözlərin "şair sinəsində yatması" kimi fikirlər göstərir ki, Sərdar hələ iqlimin tədricən yumşalmağa başladığı 50-ci illərdə ictimai-siyasi məsələlərə tənqidi yanaşmağa başlamışdı:

Qulaqdan ürəyə boşalıb gedən,
İnsanı tərpədib narahat edən,
Xəyalı oynadan bu xoş şeirlər,
Şair sinəsində neçə bahar, qış,
Necə dincəlirmiş, necə yatırmış.

(Poemanın əlyazmasının sonundakı bu qeydlər də təsadüfi deyil: “Cəsarət çatsa, çap oluna bilər. Mart 1957”).

Az keçmir ki, "şoferlə sevginin" oyun olduğu meydana çıxır. Maşınla adam vurub öldürən şoferdən - Baxışdan aldandığını göstərən məktub da alır:

Kəbinsiz, qanunsuz, müqavimətsiz,
Bizə tabe olan yüngül qızları
Aldadıb yolundan çıxardırıq biz,
Arvad eləmirik o qansızları...

Əzbərdən oxuyub gəl su tək içək,
Nizami sözüylə, Vurğun şerini.

Şair Azərbaycanın gözəl təbiətini, onun iş və zəhmət adamlarını da qəhrəmanına sevdirir:

Kəndi çox düşündü gəldiyi gündən,
Başa düşməsə də danışıqları,
Oxudu üzlərin ifadəsindən.
Azərbaycan dili nə xoşdur ona! -
Amma danışmağı bacarmayırdı.
O, bəzi sözləri düzüb yan-yana,
Tez-tez əzbərləyib, tez-tez sayırdı.
Çalışdı, hərdən də qalmadı tabı,
Əlindən düşməyən lüğət kitabı
Onun ən sevimli kitabı oldu.

S.Vurğun poeziyasında olduğu kimi, S.Əsəd də ürək sözlərini lirik ricətlərlə ifadə etməyi sevmişdir:

Açmısan yaxanı, Tanya, bu axşam,
Bu sərin havanın ayrı dadı var!
(Mən də bu yerlərə çox bağlanmı-şam,
Övlada yurdumun etimadı var!)

59-cu ilin fevralında "Azərbaycan müəllimi" qəzetində çap olunmuş "Gülsüm" poeması xidmətçi qadın Gülsümün məktəbə, bir ana kimi, məktəblilərə məhəbbətindən bəhs edir. Gülsüm xala hər bir uşağın simasında öz doğma övladını görür, onların sevinci ilə şadlanır, onların kədərinə qoşulur, hətta dəcəlliklərindən ləzzət alır, sevinir, onlarla öyünür. 7 hecalı şeir kimi yazılmış poemanı asanlıqla on dördlüyə çevirmək də mümkündür:

Hərdən düşündü durdu, hərdən gəzdi, oturdu.
Tanıyırdı hamını o beş barmağı kimi.
Hamını da sevirdi doğma uşağı kimi.
Uşaq bir lal su deyil, - dəcəli, dinməzi var,
Adamı mat qoyanı, gözə görünməzi var.

Sərdar sosialist təsərrüfatının üstünlüklərini ifadə edən poemalar yazmışdır. Əvvəlki poemaların bir qismində elmin, texnikanın yenilikləri, ölkədə baş verən yeni quruculuq işləri, işığın, elektrikin insan məişətində rolu xarakterizə olunursa, "Dağlar qoynunda" (1958) poeması ("Şimşək" poemasından parça) qoyunçuluq təsərrüfatının yüksəlişindən, maldarlıq təsərrüfatının bütövlükdə zəhmət adamının rifahının yaxşılaşmasında rolundan bəhs edir.

*(Davamı var)*